**NƏRGİZ ARİF qızı PAŞAYEVA**

*akademik*

**Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müdiri**
**İş telefonu:** 012-510-92-02
**İmeyl:** *npashaeva@mail.ru*




## QISA BİOQRAFİK MƏLUMAT

- 1962-ci il dekabr 13-də Bakı şəhərində anadan olub.
- 1978-ci ildə Bülbül adına orta ixtisas musiqi məktəbini bitirmişdir.
- 1978-1983-cü illərdə Bakı Dövlət Universitetinin Filologiya fakültəsində təhsil alıb.
- Ailəlidir, üç övladı var.

## ELMİ DƏRƏCƏ VƏ ELMİ ADLARI

- 1983-1987-ci illərdə Bakı Dövlət Universitetinin aspirantı olub.
- 1987-ci ildə "Sabirin novatorluğu" mövzusunda dissertasiya müdafiə edib və filologiya elmləri namizədi elmi dərəcəsi alıb.
- 2004-cü ildə "Müasir Azərbaycan ədəbiyyatında insanın bədii-estetik dərki" (xalq yazıçısı Elçinin yaradıcılığı əsasında) mövzusunda doktorluq dissertasiyası müdafiə edib və filologiya elmləri doktoru alimlik dərəcəsi alıb.
- 2005-ci ildə professor elmi adı alıb.
- 2014-cü ildə AMEA-nın müxbir üzvü seçilib.
- 2017-ci ildən AMEA-nın həqiqi üzvüdür.

## ƏMƏK FƏALİYYƏTİ

- 1987-1994-cü illərdə BDU-nun filologiya fakültəsi Azərbaycan ədəbiyyatı tarixi kafedrasında **müəllim, baş müəllim, dosent.**
- 1994-2005-ci illərdə Ü.Hacıbəyov adına Bakı Musiqi Akademiyasının "Dil və ədəbiyyat" kafedrasının **professoru və kafedra müdiri.**
- 2005-2006-cı illərdə Azərbaycan ədəbiyyatı tarixi kafedrasının **professoru.**
- 2006-2008-ci illərdə Bakı Dövlət Universitetində Beynəlxalq əlaqələr üzrə **prorektor.**
- 2006-cı ildən BDU-nun nəzdində fəaliyyət göstərən filologiya elmləri doktoru və fəlsəfə doktoru dissertasiyalarının müdafiəsini keçirən **D.02.181 Dissertasiya Şurasının sədri.**
- 2008-ci ildən Azərbaycan ədəbiyyatı tarixi **kafedrasının müdiri.**
- 2008-ci ildən M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının **rektoru.**
- Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

## TƏDRİS ETDİYİ FƏNLƏR

- Azərbaycan ədəbiyyatı tarixi
- Orta əsrlərdə ədəbi proses

## TƏDQİQAT SAHƏSİ

- Klassik və müasir Azərbaycan ədəbiyyatı
- Ədəbiyyatşünaslıq

## İŞTİRAK ETDİYİ KONFRANSLAR , KEÇDİYİ KURSLAR, TRENİNQLƏR

- 2004, Bakı, Azərbaycan. "Müqayisəli ədəbiyyat" adlı I **Beynəlxalq elmi konfrans.**
- 2006, Bakı, Azərbaycan. "Əsatir. Millət. Ədəbiyyat" adlı **Beynəlxalq simpozium.**
- 2006, Bakı, Azərbaycan. Görkəmli jurnalist, alim və ictimai xadim Nəsir İmanquliyevə həsr edilmiş "Nəsir İmanquliyev – 95" adlı **elmi konfrans.**
- 2008, Bakı, Azərbaycan. Görkəmli alim, yazıçı və pedaqoq Mir Cəlalın 100 illik yubileyinə həsr edilmiş "Mir Cəlal – 100" adlı **Beynəlxalq elmi konfrans.**
- 2009, Bakı, Azərbaycan. "Milli geyim və müasir modada ümumilik" adlı **Beynəlxalq simpozium.**
- 2009, Moskva, Rusiya Federasiyası. M.V.Lomonosov adına MDU. MDB ölkələri tələbə və

gənclər təşkilatları liderlərinin **IV Forumu** (gənclər siyasəti məsələləri).

- 2009, Bakı, Azərbaycan. Görkəmli alim-şərqşünas Aida İmanquliyevanın 70 illik yubileyinə həsr edilmiş "Şərq və Qərb: ortaq mənəvi dəyərlər, elmi-mədəni əlaqələr" adlı **Beynəlxalq İbn-Ərəbi simpoziumu** (eyni zamanda Simpoziumun təşkilatçısı).
- 2010, Bakı, Azərbaycan. "Qloballaşma dövründə mədəniyyətlərin dialoqu" adlı filosofların **Beynəlxalq elmi konfransı.**
- 2010, Paris, Fransa. Əl-Farabi və Avropa İntibahı" adlı **Beynəlxalq elmi konfrans.**
- 2011, Bakı, Azərbaycan. "Multikulturalizm: nailiyyətlər və problemlər" **Bakı Beynəlxalq Humanitar Forumu.**
- 2011, Bakı, Azərbaycan. "Qloballaşma dövründə Azərbaycan jurnalistikası: mənbələr və perspektivlərin icmalı" **elmi-praktik konfrans.**
- 2012, Moskva, Rusiya Federasiyası. "Qədim Rus dövlətindən Rusiya Federasiyasınadək: Rusiya dövlətçiliyinin tarixi" **Beynəlxalq elmi konfrans.**

## ÇAP OLUNMUŞ ƏSƏRLƏRİ

**Kitablar**

- 1997, Sabirin novatorluğu **(monoqrafiya)**.
- 2000, Antik ədəbiyyatının tarixi **(dərslik)**.
- 2002, Dünya deyilən sənmişsən. İstanbul, **(kitab)**.
- 2003, İnsan bədii tədqiq obyekti kimi **(monoqrafiya)**.
- 2003, İnsan-obraz-ədəbiyyat **(monoqrafiya)**.
- 2004, Yeniləşən ədəbiyyatın yeni insanı (xalq yazıçısı Elçinin yaradıcılığı əsasında) **(monoqrafiya)**.
- 2013, V cildlik, Mir Cəlal. Əsərləri **(kitab)**.

## TƏLTİFLƏRİ, MÜKAFATLARI, FƏXRİ ADLARI

- 2008-ci il noyabrın 18-də Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Rusiya Beynəlxalq elmi və mədəni əməkdaşlıq Mərkəzi tərəfindən Rusiya-Azərbaycan dostluq və əməkdaşlıq münasibətlərində göstərdiyi xidmətlərə görə "Dostluqda göstərdiyi xidmətlərə görə" nişanı ilə təltif olunmuşdur.
- 2009-cu ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.
- 2011-ci ildə Rusiya Federasiyasının Prezidenti D.Medvedevin 20 aprel 483 saylı Sərəncamına əsasən Rusiya-Azərbaycan mədəni əlaqələrinin inkişafında və xaricdə rus incəsənətinin təbliğində göstərdiyi xidmətlərə görə Rusiya Federasiyasının ali dövlət mükafatı ilə – "Dostluq" ordeni ilə təltif edilmişdir.
- 2011-ci ildə Rusiya Federasiyasının Prezidenti D.Medvedev Prezidentin Moskva yaxınlığındakı "Qorki" iqamətgahının Mavi zalında xüsusi xidmətlərinə görə əcnəbi vətəndaşlara ali dövlət mükafatlarının təqdim edilməsinə həsr olunmuş təntənəli mərasimdə "Dostluq" ordenini şəxsən təqdim etmişdir.
- 2011-ci ildə Mədəniyyət sahəsində göstərdiyi xidmətlərə görə YUNESKO-nun "Mədəniyyətlərin müxtəlifliyinə görə" medalı ilə təltif olunmuşdur.
- 2012-ci ildə Rusiya və Azərbaycanın strateji tərəfdaşlığında humanitar tərkib hissənin möhkəmlənməsinə şəxsi töhfələrinə görə Rusiya Federasiyasının Prezidenti D.Medvedevin Sərəncamı ilə "Dostluq" ordeni ilə təltif edilmişdir.
- 2012-ci ildə Macarıstanın Prezidenti Pal Şmidtin 11 mart tarixli Sərəncamı ilə professor Nərgiz Paşayeva Macarıstanın dövlət mükafatı ilə – "Xidmətlərə görə" Komandor xaç ordeni ilə təltif edilmişdir.
- 2012-ci ildə "Ticarət, kommersiya və sənaye Avropa iqtisadi palatası"nın ("European Chamber of Trade, Commerce and İsndustry – EEİG") Qızıl ordeni ilə təltif olunmuşdur.
- 2013-cü ildə Azərbaycan və Fransa əməkdaşlığının inkişafında göstərdiyi aramsız fəaliyyətinə görə zabit dərəcəli "Akademik Palma" fransız ordeni ilə təltif olunmuşdur.
- 2015-ci ildə Moskva Dövlət Universitetinin fəxri professoru diplomuna layiq görülüb.
- 2017-ci ildə müstəqillik illərində Azərbaycanda elm və təhsil sahəsində həyata keçirilmiş mühüm

beynəlxalq layihə olan Oksford Universitetində Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin yaradılması və səmərəli fəaliyyətinin təmin edilməsindəki müstəsna xidmətlərinə görə Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Qızıl medalına layiq görülmüşdür